

Fəxri Valehoğlu-Hacılar
tarix elmləri doktoru,
Türk Mədəniyyəti və İrsi Fondunun aparat rəhbəri

# Azərbaycanın Batumda ilk konsulu Mahmud bəy Əfəndiyev

## Həyatı və siyasi-diplomatik fəaliyyəti

**(əvvəli ötən sayımızda)**

***Dr. Mahmud Şəfqət Atalkının öz adını daşıyan ən kiçik nəvəsi Mahmud Cem Atalkın (12.12.1963-cü il doğumlu) iş adamıdır. O, bank və soyutma sənayesi sektorlarında çalışmış, baş ofisi İstanbulda yerləşən SOSİAD-ın (Soğutma Sanayi İş İnsanları Derneği) idarə heyətinin 2007-2011-ci illərdə sədr müavini, 2011-2013-cü illərdə isə sədri olmuşdur.***

Mahmud bəy kiçik oğluna qardaşı Süleymanın adını vermişdi. 1864-cü ildə doğulmuş Süleyman bəy Əlisüleyman oğlu Əfəndiyev (Əfəndizadə) 1885-ci ildə Yelizavetqrad süvari məktəbini bitirdikdən sonra 43-cü Tver draqun alayında hərbi xidmətə başlamış, 1888-ci ildə kornet rütbəsində 44-cü Nijeqorod draqun alayına keçirilmişdir. Bundan sonra onun xidmət yeri bir neçə dəfə dəyişdirilmişdir. 1910-1916-cı illərdə Zaqafqaziya polis keşikçi dəstəsinin Kutais quberniyası üzrə baş nəzarətçisi vəzifəsində çalışan Süleyman bəy [o zaman Kutais qəzasının polis rəisi vəzifəsini Əli Heydər Yusufov adlı şəxs tuturdu] həmin dövrdə Tiflisdə azərbaycanlıların təşkil etdiyi mədəni-maarif cəmiyyətinin işində yaxından iştirak etmiş, tez-tez Qori şəhərinə gələrək buradakı Zaqafqaziya Müəllimlər Seminariyasında təhsil alan azərbaycanlı soydaşlarının məişət şəraiti ilə tanış olmuş, onlara maddi və mənəvi cəhətdən dəstək göstərmişdir. S.Əfəndiyev 06.12.1912-ci ildə polkovnik rütbəsini almış, 1917-ci ilin dekabrında təşkilinə başlanan Müsəlman korpusunda 5-ci atıcı alayın komandiri olmuş və hətta bir müddət bu korpusda 2-ci diviziya komandirinin vəzifəsini icra etmişdir. Xalq Cümhuriyyəti dövründə o, miralay (polkovnik) hərbi rütbəsində Tərtərdə yerləşən 2-ci Qarabağ süvari alayına komandanlıq etmiş, hökumətin 29 dekabr 1918-ci il tarixli qərarı əsasında mirliva (general-mayor) rütbəsi almışdır. Bu rütbəyə layiq görülən ilk AXC zabitlərindən olan S.Əfəndiyev I piyada diviziyasının komandiri vəzifəsini icra etmişdir. O, həyat yoldaşı Laləndar xanımın xahişi ilə Qazax qəzasının Dağ Kəsəmən kəndində dəfn olunmuşdur. Hökumətin qərarı ilə Süleyman bəyin Batumda yaşayan ailə üzvləri ? xanımı və 3 övladı (Firudin, Zəkiyyə, Adilə) məvacib və yemək xərci ilə təmin olunmuşdular.



Rusiya çarının M.Əfəndiyevə hədiyyə etdiyi siqar qutusu

General-mayor Süleyman



Mahmud bəyin qızı Leyla xanım valideynlərinin məzarları üstündə dua oxurakən...

“Azərbaycan” qəzetinin 27 fevral 1919-cu il tarixli buraxılışında “bütün həyatını millətə xidmət, haqq yolunda qeyrət etməklə Zaqafqaziya islamları arasında tanınmış” Süleyman bəy Əfəndiyevin vəfatı ilə bağlı emosional tərzdə, hüznlə yazırdı: “İsti yay aylarında, qışın soyuq günlərində Ağdamda, Tərtərdə və Qarabağın sair yerlərində vətənin hüdudlarını mühafizə edərək düşmən qarşısında ər kişilərə məxsus bir qəhrəmanlıqla çalışıb-çabalayan o aliqiymət əsgər kiçik bir dövreyi-istirahətə nail olammadan və Azərbaycanın müşkül və zəhmətli şu zamanında həyata vida etdi... Zavallı həyatında oğlunun Batumda intihar etdiyindən də xəbərdar olmamışdı. Bəradəri [qardaşı], Batumda camaat xadimliyi ilə bilinmiş Azərbaycan Hökumətinin Batum konsolosu doktor Mahmud bəy Əfəndiyev sözsüz bütün ailənin böyüyü olmaq etibarı ilə çox mütəəssir olacaqdır. Biz bütün ailəsilə bərabər hörmətli Mahmud bəyə təziyət edir və səbr təmənni ediriz”.



دوقتور محمودبك افنديوف

Dr Mahmoud-Bey Effendieff

Consul de la République d'Azerbeidjan

à Bat

Konsul Dr. M.Əfəndiyevin vizit kartı

bəy Əfəndiyev 1919-cu ilin fevral ayının 21-də Azərbaycan ordusunun Ağdam qarnizonunda yayılmış səpmə yatalaq (tif) xəstəliyindən dünyasını dəyişmişdi. Ondan bir az əvvəl Süleyman bəyin ixtisasca geoloq olan böyük oğlu Həsən də Batumda intihar edərək həyatla vidalaşmışdı. Əhməd Həmdi

***Azərbaycan SSR-in Batumdakı konsulu Şeyxəli Hüseynov Gürcüstanın Batum şəhəri və vilayətində xüsusi səlahiyyətli nümayəndəsinə 25 noyabr 1920-ci ildə yazdığı məktubda doktor Fazil bəy və “dul qadın Əfəndiyeva”nın adlarını çəkir, onların eyni ailə olduğunu vurğulayırdı. Süleyman bəy Əfəndiyevin ailəsinin Batumda yaşadığını nəzərə alaraq, bu məktubda barələrində bəhs edilən “dul qadın Əfəndiyeva”nın Süleyman bəyin arvadı Laləndar xanım olduğu qənaətindəyik, dr. Fazil bəy isə Süleyman bəyin kiçik qızı Adilə xanımın həyat yoldaşı idi.***



Dr. Mahmud bəy Əfəndiyev iş otağında

Süleyman bəy və Mahmud bəy Əfəndiyev qardaşları həm də bacanaq idilər. Onların qayınatası Məmmədəli bəy Palavandovun Münəvvər, Laləndar, Bədirmah, Dərviş və Mahinur adlı 5 övladı olub.



Mahmud bəy və Mahinur xanımın məzarları

Mahmud bəyin Türkiyədə yaşayan törəmələrinin verdiyi bilgiyə görə, Mahmud bəygil 5 qardaş olublar. Onlardan böyüyü Abdulla 1850-1938-ci illərdə yaşayıb. Din xadimi olan Abdulla bəyin Məhəmməd, Nəvat və Miyanə adlı övladları olub. Məhəmməd Əfəndioğlu (1906-1934) İzmirdə yaşayıb (Məhəmməd bəy və Mahmud bəyin böyük oğlu Niyazi bəyin məzarları yan-yanadır); Miyanənin Hafizə adlı qızının olduğu məlumdur.

Mahmud bəyin digər iki qardaşının adı İsrafil (1917-ci ildə vəfat edib) və Nuri olub. Onların atasının Vladiqafqaz müftüsü oluğu, babasının adının Abdulla olduğu da törəmələri tərəfindən verilən, amma dəqiqləşdirilməyə ehtiyac olan bilgilərdəndir.

Azərbaycan sevdalı Mahmud bəy hər nə qədər Türkiyədə özünü doğma mühitdə hiss etsə də, Qafqaz nisgili, vətən həsrəti daim onun qəlbini göynədirdi. O, Karşıyakadakı evində tez-tez “Azərbaycan günü” təşkil edir, öz azərbaycanlı həmvətənlərini bir araya toplayırdı.

Dr. Mahmut Şəfqət Atalkın 1969-cu ilin 30 noyabr tarixində 89 yaşında vəfat edir və İzmirdə Karşıyaka Soğukkuyu məzarlığında həyat yoldaşı Mahinur Atalkının (01.07.1893 – 09.06.1954) yanında dəfn olunur. Bu barədə İstanbulda Türk Göçmən və Mültəci Dərnəkləri Federasyonu tərəfindən yayımlanan 3 aylıq “Türk Dünyası” fikir-kültür dərgisinin 1969-cu ildə işıq üzü görmüş 15-ci sayında yazılırdı: “Keçmiş Azərbaycan dövlətinin Batum baş konsulu, yoxsulların atası olaraq tanınan dürüst insan Dr. Mahmut Şevket Atalkın (Əfəndizadə) 30.11.1969 tarixində vəfat etmişdir. Tanrı məğfirət eyliyə” [Bu mənbəni mənimlə bölüşən dəyərli tədqiqatçı dostum Dilqəm Əhmədə minnətdarlığımı bildirirəm. Mahmud bəy Əfəndiyevin Türkiyədə daşıdığı soyadın məhz bu mənbə əsasında müəyyən edilməsiylə onun nəvəsi, hörmətli Mahinur Atalkın Düvənci ilə irtibat qurub, görkəmli diplomatımızın həyatının Türkiyə dövrü və ailə üzvləri barədə daha dolğun məlumatların əldə edilməsinə nail ola bildik].

***Dr. M.Ş.Atalkının (Əfəndizadənin) övladları və nəvələri “ölümü ilə onları sonsuz kədərə qərq edən” Mahmut bəyin həyatda ikən müalicəsiylə böyük diqqət və qayğı ilə məşğul olan Dr. Feridun Bilginerə, eləcə də bu məsələdə yardımlarını əsirgəməyən Dr. Yavuz Doğaner, Dr. Mesut Bayatlı, Dr. Tahsin Bor və Dr. Kemal Tanselə, eləcə də ailənin hüznünü bölüşən dostlarına “Yeni Asır” qəzeti (1969-cu il, N7680) vasitəsi ilə sonsuz təşəkkürlərini bildirirdilər.***